AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT PEDAQOJİ UNİVERSİTETİ

Əlyazması hüququnda

SEVİNC ARİF QIZI KƏRİMOVA

# İLKİN PEDAQOJİ KADR HAZIRLIĞINDA MÜƏLLİM-TƏLƏBƏ MÜNASİBƏTLƏRİNİN SƏMƏRƏLİ TƏŞKİLİ YOLLARI

**5804.01 – ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi**

**Pedaqogika üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

BAKI – 2013

Dissertasiya işi Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunun tərbiyə problemləri şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Akif Nurağa oğlu Abbasov,**
*pedaqogika üzrə elmlər doktoru, professor*

**Rəsmi opponentlər:** **Vidadi Cəmil oğlu Xəlilov**
*pedaqogika üzrə elmlər doktoru, professor*

**İramin Namaz oğlu İsayev**
*pedaqogika üzrə fəlsəfə doktoru, professor*

**Aparıcı təşkilat:** Bakı Slavyan Universitetinin Pedaqogika və psixologiya kafedrası

Müdafiə «_21_»__01__2014-cü il, saat ___ da Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində fəaliyyət göstərən FD.02.061 Dissertasiya şurasının iclasında kiçik akt zalında keçiriləcəkdir.

**Ünvan: AZ-1000, Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 34.**

**Dissertasiya ilə Azərbaycan Dövlət Pedaqoji Universitetinin elmi kitabxanasında tanış olmaq mümkündür.**

**Avtoreferat «_____» ___________ 2013-cü ildə göndərilmişdir.**

Dissertasiya Şurasının
elmi katibi: **K.R. Quliyeva**
pedaqogika üzrə fəlsəfə doktoru, dosent

## TƏDQİQATIN ÜMUMİ SƏciYYƏSİ

**Problemin aktuallığı.** Son zamanlar təhsil sisteminin təkmilləşdirilməsi istiqamətində bir sıra radikal addımlar atılmış, hazırkı dövrün tələbləri ilə səsləşən, milli zəminə və bəşəri dəyərlərə, demokratik prinsiplərə söykənən yeni təhsil sisteminin təşkili sahəsində əsaslı işlər görülmüşdür və görülməkdədir. Bu baxımdan ali təhsilin strukturunda bir sıra dəyişikliklər aparılmış, kurikulumlar yeniləşdirilmiş, tələbələrin biliklərinin çoxballı sistemlə qiymətləndirilməsi həyata keçirilmiş, kredit sisteminin tətbiqinə başlanılmışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dövlətin təhsil siyasətindən danışarkən aşağıdakı çox önəmli bir məsələni diqqət mərkəzinə gətirmişdir: «Biz maddi dəyərlərimizi, iqtisadi potensialımızı insan kapitalına çevirməliyik. Çünki insanın savadı, biliyi onun gələcək həyatını müəyyən edir, ölkənin hərtərəfli inkişafına xidmət edir və beləliklə, ölkənin intellektual potensialı da möhkəmlənir». Tələbələrin seçdikləri ixtisasa yiyələnmələrində, gələcəyin yaxşı, nüfuzlu müəllimləri, tərbiyəçiləri olmalarında, milli-mənəvi dəyərlərə, ümumi və pedaqoji mədəniyyətə, nümunəvi davranışa, geniş dünyagörüşə, dərin və hərtərəfli biliyə, bacarığa, nəzəri və praktik hazırlığa yiyələnmələrində pedaqoji prosesin düzgün təşkilinin müstəsna dərəcədə böyük rolu vardır.

Pedaqoji prosesin səmərəliliyi müəllim-tələbə münasibətlərinin səmərəli qurulmasından, müəllimin təlim-tərbiyə prosesini bacarıqla idarə edə bilməsindən xeyli dərəcədə asılıdır. Bu, eyni zamanda tələbələrin xalqımızın azadlıq və demokratiya ənənələrinə sadiq olan, millətimizin mənəvi, humanist və mədəni dəyərlərini mənimsəyən, doğma diyarı, onun sakinlərini sevən, ölkəmizin şərəfini qoruyan, müstəqil və yaradıcı düşünməyi bacaran şəxsiyyətlər kimi yetişmələrinə imkan verir. İlkin pedaqoji kadrların hazırlanması müəllim-tələbə münasibətlərinin səviyyəsindən, keyfiyyətindən çox asılıdır. Müəllim-tələbə münasibətlərinin düzgün qurulması üçün ilk növbədə müəllim yüksək mənəvi keyfiyyətlərə yiyələnməli, nümunəvi davranmalı, mütəxəssis, işçi və insan kimi özünü doğrultmalıdır. Müəllim-şagird münasibətlərinin səmərəli təşkili problemi bu və ya digər dərəcədə tədqiqatların obyekti olsa da, ali məktəblərdə ilkin pedaqoji kadr hazırlığında müəllim-tələbə münasibətlərinin formalaşdırılması ilə bağlı xüsusi tədqiqat aparılmamış, kitab və kitabçalar yazılmamışdır.

Bundan başqa, ali məktəblərdə müəllim-tələbə münasibətlərinin səmərəli qurulması üzrə təlim prosesində müəyyən işlər görülsə də, bu istiqamətdə auditoriyadankənar vaxtlarda görülən işlər lazımi səviyyədə deyildir. Bu problemlə bağlı xüsusi tədqiqatın olmaması, ali məktəb müəl-

limlərinin zəruri vəsaitə ehtiyac hiss etmələri, ən əsası isə, yeni pedaqoji təfəkkür şəraitində ali təhsil müəssisələrində demokratiyanın, humanistləşdirmənin genişləndirilməsinin vacib olduğu indiki şəraitdə «İlkin pedaqoji kadr hazırlığında müəllim-tələbə münasibətlərinin səmərəli qurulması yolları» mövzusunda dissertasiya yazmağı məqsədəuyğun hesab etdik:

**Tədqiqatın obyekti** ali pedaqoji məktəblərdə müəllim-tələbə münasibətlərinin səmərəli qurulması prosesidir.

**Tədqiqatın predmeti** müəllim-tələbə münasibətlərinin səmərəli qurulması üzrə işin imkan və yollarıdır.

**Tədqiqatın məqsədi** ali pedaqoji məktəblərdə müəllim-tələbə münasibətlərinin səmərəli qurulması istiqamətində aparılan işlərin sistemini yaratmaqdan ibarətdir.

**Tədqiqatın fərziyyəsi.** Müəllim-tələbə münasibətlərinin səmərəli qurulması aşağıdakı şərtlər daxilində mümkündür:

-müəllim-tələbə münasibətlərinin səmərəli qurulması üzrə işin mahiyyəti, məqsədi və əhəmiyyəti hər bir ali məktəb müəllimi tərəfindən aydın təsəvvür olunarsa, bu məsələ universitet, institut və təhsil akademiyalarının qarşısında duran ən mühüm vəzifələrindən biri kimi nəzərdən keçirilərsə;

-müəllim-tələbə münasibətlərinin səmərəli qurulması ali məktəblərdə pedaqoji kollektivin hər bir üzvünün daxili tələbatına çevrilərsə və bu zaman müəllim-tələbə münasibətlərinin demokratikləşdirilməsi və humanistləşdirilməsi əsas götürülərsə;

-müəllim-tələbə münasibətlərinin səmərəli qurulması məqsədilə təlim prosesinin və auditoriyadankənar tədbirlərin imkanları nəzərə alınarsa.

Tədqiqatın məqsədinə və fərziyyəsinə əsasən aşağıdakı **vəzifələr** müəyyənləşdirilmişdir:

- müəllim-tələbə münasibətlərinin səmərəli qurulmasını ali məktəbdə təlim müvəffəqiyyətinin və tələbələrin tərbiyəlilik səviyyəsinin mühüm şərti kimi nəzərdən keçirmək;

-düzgün qurulmuş müəllim-tələbə münasibətlərinə pedaqoji prosesin səmərəliliyinin şərti kimi yanaşmaq;

-müəllim şəxsiyyəti və ona verilən başlıca tələblərit konkretləşdirmək;

-tələbələrin fərdi-psixoloji xüsusiyyətlərinə bələd olmağa müəllim-tələbə münasibətlərini yaxşılaşdırmağın mühüm şərti kimi yanaşmaq;

- müəllim tipologiyasının müəllim-tələbə münasibətlərinə təsirini aşkara çıxarmaq;

-müəllim-tələbə münasibətlərində nümunənin rolunu əsaslandırmaq;

-təlim prosesində müəllim-tələbə münasibətlərinin səmərəli təşkili

yollarına aydınlıq gətirmək;

-mühazirələrdə və seminar məşğələlərində müəllim-tələbə münasibətlərinin təşkilinin səmərəli yollarını müəyyənləşdirmək;

-pedaqoji təcrübə dövründə müəllim-tələbə münasibətlərinin düzgün qurulması şərtlərini müəyyənləşdirmək;

-auditoriyadankənar tədbirlərdə müəllim-tələbə münasibətlərinin səmərəli təşkili yollarına aydınlıq gətirmək;

-müəllim-tələbə münasibətlərinin səmərəliliyinin müəyyən etmək.

**Tədqiqatın metodoloji əsasını** pedaqoji gerçəkliyin pedaqoji fakt, hadisə və proseslərinin dərk edilməsi və dəyişdirilməsi haqqında nəzəri müddəaların məcmusu təşkil etmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Müəllim-tələbə münasibətlərinin səmərəli qurulması üzrə işin nəzəri və praktik məsələləri bir sistem şəklində işlənmiş, problem baxımından təlim prosesinin və auditoriyadankənar tədbirlərin imkanları və səmərəli yolları müəyyənləşdirilmişdir.

**Tədqiqatın nəzəri əhəmiyyəti** bundan ibarətdir ki, əsərdə irəli sürülən fikirlər, elmi müddəalar pedaqogika nəzəriyyəsini yeni ideyalarla zənginləşdirəcək, ilkin pedaqoji kadr hazırlığında müəllim-tələbə münasibətlərinin səmərəli təşkili işinin elmi əsaslar üzərində qurulmasına imkan verəcəkdir.

**Tədqiqatın praktik əhəmiyyəti.** Əsərdə öz əksini tapmış iş sistemi, başlıca ideyalar, tədqiqatın nəticələri ilkin pedaqoji kadr hazırlığında müəllim-tələbə münasibətlərinin səmərəli qurulması sahəsində ali məktəb müəllimlərinə kömək göstərəcəkdir.

**Müdafiəyə çıxarılan müddəalar** :

1) ali pedaqoji məktəblərdə ilkin pedaqoji kadr hazırlığının keyfiyyətinin yüksəldilməsi müəllim-tələbə münasibətlərinin səmərəli qurulmasından asılıdır;

2) müəllim-tələbə münasibətlərinin səmərəli qurulması ali pedaqoji məktəblərdə tələbələrin tərbiyəlilik səviyyəsinin yüksəlməsini şərtləndirir.

Tədqiqatın nəticələrinin tətbiqi. Dissertasiyada təklif olunan iş sistemi Azərbaycan Müəllimlər İnstitutunun Zaqatala və Cəlilabad filiallarında, Bakının 9, Sumqayıtın 10 nömrəli məktəblərində tətbiq olunmuşdur. İddiaçı tədqiq etdiyi problemlə əlaqədar 7 jurnal məqaləsi (o cümlədən bir məqalə xaricdə) nəşr etdirmiş, 2 Beynəlxalq Konfransda məruzə ilə çıxış etmişdir.

Dissertasiyanın quruluşu. Dissertasiya girişdən, 9 yarımfəsli özündə birləşdirən iki fəsildən, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

**Girişdə** tədqiqatın aktuallığı əsaslandırılır, obyekti və predmeti, məqsədi, elmi fərziyyəsi, vəzifələri və metodoloji əsası açıqlanır, həmçinin istifadə olunmuş tədqiqat metodları, tədqiqatın elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, müdafiəyə çıxarılan müddəalar, nəticələri barədə yığcam məlumat verilir.

Dissertasiyanın birinci fəsli **«Düzgün qurulmuş müəllim- tələbə münasibətləri pedaqoji prosesin səmərəliliyinin şərti kimi»** adlanır. Bu fəsil dörd yarımfəsildən ibarətdir. «*Müəllim şəxsiyyəti və ona verilən tələblər*» adlı birinci yarımfəsildə göstərilir ki, bütün elm sahələrinin nümayəndələri, o cümlədən pedaqoq, psixoloq və filosoflar, ictimai və dövlət xadimləri və başqaları peşələrdən söz düşərkən ilk növbədə müəllimlik peşəsini diqqət mərkəzinə gətirirlər.

Müəllim şəxsiyyəti və ona verilən tələblərdən danışarkən ideal pedaqoq üçün vacib olan keyfiyyətlərə aydınlıq gətirilməlidir. Müxtəlif pedaqoq və psixoloqlar, digər elm nümayəndələri, mütəfəkkirlər təxminən bir-birinə bənzər keyfiyyətlərin üzərində dayanırlar. Müəllimlik peşəsinin çətin, mürəkkəb və eyni zamanda şərəfli peşə olduğunu qeyd etməklə müəllimin öz peşəsinə məsuliyyətlə yanaşmasını, ciddi və tələbkar, eyni zamanda humanist, demokratik, obyektiv, prinsipial, işgüzar, ədalətli, mərhəmətli və s. olmasını diqqət mərkəzinə gətirirlər. Lakin alimlərin təsnifatlarında müəyyən səciyyəvi cəhətlər də vardır. Bütün yuxarıda deyilənlər nəzərə alındıqda müəllim-tələbə münasibətləri də düzgün qurulur, qarşılıqlı anlama mövcud olur.

Fəslin ikinci yarımfəsli «*Tələbələrin fərdi-psixoloji xüsusiyyətlərinə bələd olmaq tələbə-müəllim münasibətlərini yaxşılaşdıran mühüm şərt kimi*» adlanır. Tələbələrin mənəviyyatının formalaşmasında, əxlaqının saflaşmasında onlar arasındakı qarşılıqlı münasibətlərin xarakteri böyük rol oynayır. Tərbiyə prosesinə həm də sosial həyatdakı münasibətlər öz təsirini göstərir. Həmin təsir həm müsbət, həm də mənfi ola bilər. Odur ki, pedaqoji prosesin uğurlu aparılması üçün yaradılmış şərait, lazım olan şərtlər yalnız tələbə şəxsiyyətinin mənəvi cəhətdən təşəkkülünə və inkişafına kömək göstərəcək münasibətləri qaydaya salmamalıdır, tələbələr bəşəriyyətin qazanmış olduğu mənəvi təcrübəni əxz etməlidirlər. Tələbələri etiketdə öz əksini tapmış düzgün hərəkət, rəftar qaydaları ilə tanış etmək və onların həmin tələbləri yerinə yetirməsinə nail olmaq lazımdır. Ali məktəbin daxilində, ictimai yerlərdə tələb olunan qayda və normaları gözləmək bir-biri ilə, böyüklərlə münasibətlərində, öz-özlərinə münasibətlərində

müsbət nəticələr verir. Tələbə şəxsiyyəti təkcə pedaqoji prosesin subyekti kimi nəzərdən keçirilə bilməz. O, gələcəyin mütəxəssisi, ailə başçısıdır. Tələbə şəxsiyyəti həm də sosialdır və formalaşma obyektindən asılı olaraq həmişə fəaldır. Deməli, əslində tələbənin şəxsiyyəti eyni zamanda ictimai münasibətlərin obyekti sayılır. Hər bir şəxs öz şüurunda mənəvi ideya və anlayışları, qayda və normaları əks etdirərək fəal şəkildə obyektiv münasibətlərə qoşulur, mənimsədiklərinə və yaratdıqlarına subyektiv münasibət bəsləmək vərdişinə yiyələnir.

Tələbə həyatı ilk gənclik dövrünə təsadüf edir. Hər bir yaş dövründə inkişafın üç istiqaməti mövcuddur: a) anatomik-fizioloji; b) psixoloji; c) intellektual-mənəvi inkişaf.

Ali təhsil müəssisələrində müvəffəqiyyətlə oxumaq üçün tələbələr mənəvi və psixoloji baxımdan formalaşmalı, müstəqil, təşəbbüskar, təşkilatçı olmalıdırlar. Müəyyən yaşda olan insan və şəxsiyyət kimi tələbəni üç cəhədən səciyyələndirmək mümkündür: sosial, pedaqoji-psixoloji və bioloji.

1. Sosial cəhət oğlan və qızların müəyyən millətə, xalqa, qrupa mənsub olması ilə əlaqədar ictimai münasibətlərin və əlamətlərin ifadəsi kimi özünü büruzə verir.

2. Pedaqoji-psixoloji cəhət psixi proseslərin, psixi halların, psixi xassələrin və şəxsiyyətin təhsilinin vəhdətini təşkil edir.

3. Bioloji cəhət ali sinir sisteminin fəaliyyətini, orqanizmin və analizatorların quruluşunu, şərtsiz refleksləri, instinktləri, fiziki qüvvələri, dərinin və gözlərin rəngini, sifət cizgilərini, boyu və s. bu kimi tərkib hissələri özündə birləşdirir.

Tələbə şəxsiyyətinin mənəvi inkişafını, onun həyata münasibətini, yaşadığı və fəaliyyət göstərdiyi sosial mühiti, üzvü olduğu kollektivi yaxından öyrənmədən düzgün anlamaq olmur. Gəncləri tədris ocağında əhatə edən mühiti, tələbə kollektivini və buradakı mənəvi və psixoloji iqlimi, kollektivin pedaqoji təsirinin hansı səviyyədə olduğunu öyrənmək hələ kifayət deyildir. Asudə vaxtlarında tələbələrin nə ilə məşğul olduğunu, nəyə maraq göstərdiyini, ailəsinin tərbiyəvi imkanlarını, yataqxananın, yaxud kirayədə qaldığı mənzilin tərbiyə potensialını və şəraitini aşkara çıxarmaq zəruridir.

Qiymətləndirmədə tələbənin fəaliyyətinin nəticəsi öz ifadəsini tapır, əxlaqi baxımdan kamilləşmə üçün səmərəli yollar müəyyən edilir. Mənəvi cəhətdən inkişaf etmiş şəxs o adam sayıla bilər ki, müvafiq yaş dövründə (məsələn, gənclik yaşında) öz davranışını idarə edir, davranışını və hərəkətlərini qiymətləndirməyi bacarır. Orta təhsilin müxtəlif pillələrində şagirdlərin davranışı cəmiyyətin və üzvü olduğu kollektivin tələblərinə

uyğun gəlsə də, müxtəlifdir.

Ali məktəb dövründə tələbələrdə daha sabit mənəvi münasibət və baxışlar, tələblər və qiymətləndirici mühakimələr əmələ gəlir. Tələbənin davranışının mənəvi tərəfi kor-koranə deyil, şəxsiyyətin davranış tərzinin həyata keçirilməsinə hazırlığın əvvəlcədən təşkili yolu ilə, tələbatının təmin olunmasına imkan verilməklə, məqsədə çatmaq üçün davranışın müəyyən formalarında üzə çıxan qüvvələri hərəkətə gətirməklə təmin olunur. Bütün bunlarla yanaşı, əxlaqi davranışı yalnız tələbənin tələbatına və maraqlarına əsasən də izah etmək düzgün deyildir. Bu sahədə məsuliyyət borc və vətəndaşlıq vəzifələri əsas rol oynayır. Ayrılıqda götürdükdə hər bir tələbəyə bir-biri ilə sıx surətdə əlaqədar olan bəzi əlamətlər məxsusdur ki, onlar gənc oğlan və qızın şəxsiyyətinin tamlığına, xarakterinin bütövlüyünə imkan verir. Bu xüsuiyyətlər də öz-özlüyündə ictimai münasibətlərin sistemini müəyyən edir.

Tələbə oğlan və qızlar yeni mənəvi davranış qaydaları meydana gətirmir, yaşlı insanlar tərəfindən toplanmış təcrübəni əxz edirlər. Həmin təcrübənin mənimsənilməsi isə qeyri-fəal deyil, əksinə fəal, yaradıcı proses sayılır. Mənəvi təcrübədə daim təshihlər aparılır, əlavələr edilir. O, başa çatmış münasibətlərin və qarşılıqlı münasibətlərin hazır nəticəsi kimi deyil, inkişafda və təkmilləşməkdə olan proses kimi nəzərdən keçirilir.Mənəvi təcrübənin qazanılması zamanı iki cəhət özünü büruzə verir. Birinin mahiyyəti budur ki, təcrübə dedikdə, empirik fəaliyyət başa düşülür. Başqa sözlə, tələbənin bu və ya digər fəaliyyətindən söz açılır. İkincisinin mahiyyəti odur ki, mənəvi davranış, rəftar və ünsiyyət təcrübəsi dedikdə, dərk olunan hərəkət və əməllər anlaşılır, davranışın özü isə tələbənin əqli, hissi-iradi sahəsinin ifadə edildiyi hərəkət kimi nəzərdən keçirilir. Bizcə, ikinci mövqe daha düzgün və əsaslandırılmışdır.

Deyilənlərdən görünür ki, tələbələrin fərdi-psixoloji xüsusiyyətlərinə bələd olmaq tələbə-müəllim münasibətlərini yaxşılaşdıran mühüm şərtdir.

Fəslin «*Müəllim tipologiyası və müəllim-tələbə münasibətlərinə onun təsiri*» adlanan növbəti yarımfəslində qeyd olunur ki, müəllim və tələbə arasında subyekt-subyekt münasibətlərinin həyata keçirilməsinin ilkin şərti və eyni zamanda nəticəsi şəxsiyyətə və gəncin müstəqilliyinə təzyiq, təlimə məcburetmə və davranışı rejimləşdirmək əsasında deyil, tələbənin yaradıcı özfəaliyyəti üçün əlverişli şərait yaratmağa istiqamətlənmiş (inkişafa yönəlmiş sistem) pedaqoji fəaliyyət ola bilər. Subyekt-subyekt münasibətləri bir-birini dəyərləndirməyə əsaslanır. Müəllim əməyinin yaradıcılığı münasibətlər sistemini, pedaqoji fəaliyyətin həyata keçirilməsi üsullarını aşağıdakı kimi səciyyələndirmək mümkündür: müstəqillik-asılılıq (*yara-*

*dıcılıq üçün*) qəbul olunmayan (*münasibətlər sistemi üçün*), vadaretmə sistemi – inkişafa (*pedaqoji fəaliyyətin həyata keçirilməsi üsulu üçün*) istiqamətlənmiş sistemdir. Dissertasiyada pedaqoji əməyin modelinə əsasən təcrübədə özünü göstərən 8 müəllim tipinin üzərində dayanılmış və hər birinə aid nümunələr verilmişdir.

Fəslin dördüncü yarımfsəlində «*Müəllim-tələbə münasibətlərində nümunənin rolu*» diqqət mərkəzinə gətirilir. Müəllim hər zaman özü üzərində çalışmalı, oxumalı, öyrənməli, təcrübəsini artırmalıdır. O, bildiklərini öyrədən, bilmədiklərini öyrənən olmalıdır. Müəllim nümunə, tələbələrin təqlid obyekti olmaq üçün geyiminə-keçiminə, oturuşuna-duruşuna, davranışına və rəftarına, nitqinə fikir verməlidir. Müəllimin sadə geyinməsi kifayət edir. Təmtəraqlı geyim ona gətirib çıxarır ki, bəzi tələbələr maddi şeylərə dəyər verirlər. Səliqəsiz, nimdaş geyinmək də məqsədəuyğun deyil. Müəllim öz yetirmələrinə hər bir sahədə nümunə olmalıdır. Müəllim hər cəhətdən (elm, amal, söz, hərəkət, əxlaq, davranış və rəftar baxımından və s.) tələbəyə gözəl nümunə olmalıdır.

Dissertasiyanın «**Təlim prosesində və auditoriyadankənar tədbirlərdə müəllim-tələbə münasibətlərinin təşkili yolları**» adlı ikinci fəsli beş yarımfəsildən ibarətdir. Fəslin birinci yarımfəsli «*Mühazirələrdə müəllim-tələbə münasibətlərinin səmərəli təşkilinin şərtləri*» adlanır. Bu yarımfəsildə aşağıdakı məsələlər diqqət mərkəzində dayanır. Qarşılıqlı anlaşmaya, qarşılıqlı hörmətə əsaslanan münasibət müəllim-tələbə ünsiyyətini asanlaşdırır, onları bir-birinə yaxınlaşdırır, müəllimin nüfuzunu yüksəldir, tələbə bir şəxsiyyət kimi qiymətləndirildiyini görüb təlimə maraq göstərir, elmlərə əzmlə yiyələnir, istedad və qabiliyyətini büruzə verməkdən çəkinmir. Təlim-tərbiyənin düzgün qurulduğu ali məktəblərdə tələbəyə pedaqoji prosesin bərabərhüquqlu üzvü kimi yanaşılır.

Müəllim-tələbə münasibətlərinin xarakteri mühazirə oxuyanın şəxsiyyətindən çox asılıdır. Bu mənada müəllimin şəxsiyyətinə aşağıdakı pedaqoji-psixoloji tələblər verilir: 1)Mühazirəçi nümunəvi davranış və rəftar tərzinə malik olmalı, nümunəvi-əxlaqı özündə birləşdirməlidir.2)Mühazirəçi nəzəri hazırlığa malik olmalı, öz fənnini yaxşı bilməlidir. 3)Mühazirəçi pedaqoji ustalığa və metodik hazırlığa yiyələnməlidir. 4) Mühazirəçi aydın və rəvan nitqə malik olmalı, sözcülüyə, təkrarlara yol verməməli, nitqini sistemli qurmalı, fikrini məntiqli ifadə etməli, hədsiz sitatlara uymamalıdır. Onun nitqi əsaslı və sübutlu olmalıdır, tələbələri düşündürməli, onları biliklərlə silahlandırmalıdır. 5)Mühazirənin gedişində müəllim-tələbə münasibətlərinin tərzi düzgün tənzim olunmalıdır. Tələbə yersiz hərəkətə yol verdiyi təqdirdə də müəllim özündən çıxmamalı, təmkinli olmalı,

münasibətləri gərginləşdirən tədbirə əl atmamalıdır. Əks təqdirdə, auditoriyada mənəvi və psixoloji iqlim pisləşə bilər. Eksprimentə cəlb edilmiş ali məktəblərin akademik qruplarında mühazirələr oxunarkən bu cəhət nəzərə alınmışdır.

İkinci fəslin ikinci yarımfəsli «*Seminar məşğələlərində müəllim-tələbə münasibətləri*» adlanır. Seminar məşğələsi başlıca olaraq üç vəzifənin yerinə yetirilməsinə istiqamətlənmişdir: 1)təhsilləndirici; 2)tərbiyələndirici; 3)inkişafetdirici. Bəzi tədqiqatlarda bu funksiyalarla yanaşı eyni zamanda nəzarət funksiyasına da diqqət yetirirlər. Seminar məşğələləri ali məktəbdə təlimin təşkilinin çox mühüm formalarından biri olub, mühazirələr zamanı tələbələrə verilmiş biliklərin, yaxud mühazirə prosesində nəzərdən keçirilməyən hər hansı mövzuların və tədris materialının necə mənimsənildiyini aşkara çıxarmaq məqsədilə təşkil olunur, tələbələrə praktik bacarıqlar aşılayır, onların peşə qabiliyyətləri inkişaf etdirir.

Seminar məşğələlərinin səmərəliliyi müəllimin nəzəri və metodik hazırlığından tələbələrin tədris maierialına bələdlilik səviyyəsindən və auditoriyada yaranmış mənəvi-psixoloji iqlimdən asılıdır

Fəslin II yarəmfəsli «*Pedaqoji təcrübə dövründə müəllim-tələbə münasibətlərinin dügün qurulması şərtləri*» adlanır. Pedaqoji təcrübə zamanı müəllim-tələbə münasibətlərinin səmərəli təşkili müəllimlə yanaşı, həm də tələbələrin özlərindən, onların öz vəzifələrinə necə yanaşmalarından da xeyli dərəcədə asılıdır. Pedaqoji təcrübə dövründə də öz işinə məsuliyyətsiz yanaşan, dərslərə gecikən, verilən tapşırıqları yerinə yetirməyən, yaxud laqeyd şəkildə yerinə yetirən, təcrübəçi tələbə-şagird münasibətlərini lazımi səviyyədə qura bilməyən, dərsdənkənar tədbirlərin təşkilində və dərslərin deyilməsində səriştəsizlik göstərən tələbələrə təsadüf olunur. Bir sıra hallarda beləlləri müəllimin, pedaqoji təcrübə rəhbərinin məsləhətlərinə də qulaq asmır, nəticədə təhsil aldığı ali məktəb haqqında xoşagəlməz rəyin formalaşmasına şərait yaradırlar. Əlbəttə, bu kimi tələbələrlə xüsusi işin aparılmasına ehtiyac vardır.

Pedaqoji təcrübə dövründə tələbə dərsə gecikibsə, dərsi səmərəli qura bilmirsə, pedaqoji təcrübə rəhbəri, metodist müəllim nə etməlidir? Şagirdlərin yanında ona, ümumiyyətlə, ayrı-ayrı tələbələrə acıqlanmaq, irad tutmaq olarmı, yaxud fənn müəlliminin, sinif rəhbərinin yanında necə? Tələbələr tərəfindən aparılmış sınaq dərslərinin təhlili zamanı səsini qaldıran, əsəbi danışan metodist düzgün hərəkət edirmi? Bütün bu suallar pedaqoji etikanın tələbləri çərçivəsində, pedaqoji mərifət, pedaqoji takt gözlənilməklə həll edilməlidir. İstər ali məktəb müəllimləri, istərsə də pedaqoji təcrübənin keçirildiyi ümumtəhsil məktəbinin fənn müəllimləri və

pedaqoji kollektivin digər üzvləri təcrübəçi tələbələrə qarşı diqqətli olmalı, kömək göstərməlidirlər.

Yarımfəsildə nəzərdən keçirilən məsələlərdən belə qənaət hasil olur ki, pedaqoji təcrübə dövründə də müəllim-tələbə münasibətləri diqqət mərkəzində dayanmalıdır. Bu münasibətlər özünəməxsusluğu ilə səciyyəvidir. Bir tərəfdən pedaqoji təcrübə dövründə tələbə gənclər öz ali məktəb müəllimləri – pedaqoji təcrübə rəhbəri, metodist müəllim, pedaqogika və psixologiya müəllimləri; digər tərəfdən təcrübə keçdikləri ümumtəhsil məktəblərin sinif müəllimləri, fənn müəllimləri, sinif və məktəb rəhbərləri ilə qarşılıqlı münasibətlərdə, ünsiyyətdə olurlar. Ali məktəb müəllimləri ilə onların qarşılıqlı münasibətləri həm müəllim-tələbə, həm də müəllim-müəllim (burada tələbələr əllərində curnal, müəllim kimi sinif otaqlarına daxil olur, müstəqil dərs keçirlər) münasibətlərində olurlar.

Fəslin dördüncü yarımfəsli «*Auditoriyadankənar tədbirlərdə müəllim-tələbə münasibətləri*» adlanır. Müəllim təhsil alana münasibəti ilə öz pedaqoji fəaliyyətinin necəliyini, cəmiyyətdəki mövqeyini və iş üslubunu anlamaq imkanı qazanır. Müəllim danışığında, davranış və rəftarında etik normadan kənara çıxdıqda, onunla tələbə arasında münasibət pozulur, ixtilaflar baş qaldırır. Müəllim öz vəzifə borcunu və məsuliyyətini heç zaman unutmamalıdır. Ən nöqsanlı cəhət isə, tələbələr arasında açıq-aydın fərq qoymaqdır. Belə münasibət nəticəsində bəzi tələbələr müəllimdən inciyir, onun ədalətsiz, qeyri-obyektiv münasibətinə bir çox hallarda dözmür, açıq etirazlarını bildirirlər. Tələbənin biliyinin düzgün qiymətləndirilməməsi onda sonsuz məyusluq yaradır, onda başqalarına, o cümlədən öz müəlliminə qarşı da qeyri-obyektiv münasibət formalaşdırır. Mənəvi davranışına görə tələbənin pis qiymətlə cəzalandırılması da müəllimin keyfiyyətini aşağı salır, münasibətlərdə gərginlik yaradır.

İkinci fəslin altıncı yarımfəslinə «*Müəllim-tələbə münasibətlərinin səmərəliliyinin müəyyən edilməsi*» kimi vacib bir məsələ diqqət mərkəzində dayanmışdır.

İlkin pedaqoji kadr hazırlığı zamanı müəllim-tələbə münasibətlərinin səmərəliliyini müəyyənləşdirmək məqsədilə pedaqoji eksperiment keçirilmişdir. Eksperimentin birinci mərhələsində tələbələr və müəllimlər kütləvi sorğuya cəlb edilmiş, onlar üzərində müşahidələr aparılmış, söhbətlər və müsahibələr keçirilmişdir. Məqsəd ali məktəblərdə müəllim-tələbə münasibətlərinin necə qurulduğunu öyrənməkdən ibarət olmuşdur. Üç səviyyə aşkara çıxarılmışdır: yüksək, orta və aşağı.

Tələbə oğlan və qızlara bir sıra suallara cavab vermək təklif olunmuşdur. İlk sorğu müəllim-tələbə münasibətlərinin xarakterinə aid idi.

diqqət yetirək: «Müəllimlərinizin sizinlə qarşılıqlı münasibətlərində daha çox səciyyəvi olan cəhətlər hansılardır?»

Sorğuda iştirak edən 107 tələbənin 27 nəfəri müəllimlərin ciddilik və rəsmiliyini; 35 nəfəri müəllimlərin bəzi tələbələrdən yan dolandığını, hər tələbə ilə ünsiyyət bağlamağı, səmimi davranmağı özünə rəva görmədiyini və onlarla maraqlanmadığını; 41 nəfəri müəllimlərin avtoritar üslubunu; 36 nəfəri isə avtokratik üslubunu; 29 nəfəri onların liberal üslubunu; 24 nəfəri də demokratik üslubunu diqqət mərkəzinə gətirmişdir.

Kütləvi sorğu zamanı müəllimlərin tələbə həyatı ilə maraqlanıb-maraqlanmadığını aydınlaşdırmağa səy göstərildi. Məlum oldu ki, 73 müəllimin yalnız 12 nəfəri (onların da 8-i qadın müəllimlər idi ki, daha çox qızların gün-güzəranı və davranışı ilə maraqlanırdı) tələbələrin məişət şəraiti, dolanışığı və ehtiyacları ilə; 11 nəfəri onların öz asudə vaxtlarını necə keçirmələri ilə; 15 nəfəri gənclərin öz ailələri – valideynləri, bacı-qardaşları ilə necə əlaqə saxlamaları ilə; müəllimlərdən 7 nəfəri gənc oğlan və qızların mühazirə və seminarlardan sonra vaxtını necə və harada keçirmələri ilə; 10 nəfəri gənclərin öz tələbə yoldaşları ilə; 6 nəfəri tələbələrin müəllimlərlə qarşılıqlı münasibətlərinin; 12 nəfəri onların dekanlıq və ali məktəbdəki digər təşkilatlarla münasibətlərinin, 8 nəfəri tələbələrin akademik qrupun kuratoru ilə; 4 nəfəri isə gənclərin başqa adamlarla, yaşayış yerindəki insanlarla qarşılıqlı münasibətlərinin xarakteri ilə maraqlanmışdır.

Müəllimlərin tələbələrə göstərdikləri konkret köməklə bağlı məsələ də diqqətdən kənarda qalmamışdır. Məlum olmuşdur ki, sorğuda iştirak edən 63 müəllimin 17-i təlimdə və təlim müvəffəqiyyətinin artırılmasında; 13-ü auditoriyadankənar tədbirlərin təşkilində və həmin tədbirlərin tələbələrin hiss və duyğularında, davranış və rəftar tərzində müsbət izlər buraxmasında; 9 nəfəri gənclərin ailə-məişət problemlərinin həll olunmasında; müəllimlərdən 14 nəfəri tələbələrin ailə həyatına uğurla hazırlanmalarında, 6 nəfəri əks cinslə qarşılıqlı münasibətlərin düzgün qurulmasında məsləhətçi rolunu oynamaqla; 14 nəfəri tələbələrin seçdikləri ixtisasa nəzəri cəhətdən; müəllimlərin 12 nəfəri tələbələrin seçdikləri ixtisasa praktik baxımdan yüksək səviyyədə yiyələnmələrində öz köməklərini göstərmişlər.

Eksperimentin ilkin, müəyyənedici mərhələsində tələbələrin təlim fəaliyyəti, yaradıcı fəallığı və idrak müstəqilliyi müşahidə olunmuşdur. Mühazirə və seminar məşğələlərində tələbələrin: 1) müstəqilliyi; 2) təşəbbüskarlığı; 3)yaradıcı fəallığı; 4)təlim (pedaqoji) prosesinin bərabərhüquqlu üzvü kimi qəbul olunmalarının səviyyələrini aşkar etməyə cəhd göstərilmişdir.

Eyni zamanda auditoriyada müəllimlərin fəaliyyəti ilə bağlı məsələlərin öyrənilməsi diqqət mərkəzimizdə dayanmışdır. Sorğunun nəticələri bizi qane etməmişdir. Bir çox müəllimlərin  davranış və rəftarı yüksək səviyyədə olsa da, bəzi müəllimlərin davranış və rəftarı pedaqoji etikanın tələblərinə uyğun gəlmir. Onlar bir sıra hallarda müəllim-tələbə münasibətlərini lazımi səviyyədə qura bilmirlər. Bu daha çox onların xarakterindən, xasiyyətindən irəli gəlir. tələbələrlə kobud rəftar edir, adi bir anlaşılmazlıq olduqda bunu problemə çevirir, tələbələri hədələyirlər. Mühazirə oxuyan bəzi müəllimlərin nitqi və ünsiyyət tərzi də xoşagələn deyil. Bu müəllimlərin nəzəri və metodik hazırlığı aşağı səviyyədədir. Təbii ki, onların pedaqoji ustalıq nümayiş etdirəcəyindən danışmağa dəyməz.

Tələbələrə aşağıdakı suallarla da müraciət etdik: «Dərs zamanı müəllimlərinizin sizinlə münasibətlərinin necə olmasını istərdiniz?»,

«Müəllimlərin sizinlə münasibətlərinin necə olmasını istərdiniz?» və «Auditoriyadankənar vaxtlarda müəllimlərinizin sizinlə münasibətlərinin necə olmasını arzulayardınız?»

Alınan cavablarla dissertasiyada tanış olmaq mümkündür. Sualların yuxarıdakı şəkildə qoyuluşu nəticəsində öyrəndik ki, ali məktəb müəllimlərinin böyük əksəriyyəti  nümunəvi davranışa və rəftar tərzinə malikdirlər, həmin müəllimlər tələbələrə yüksək hörmətlə yanaşır, yaranmış vəziyyətdən asılı olmayaraq, özünü təmkinli və səbirli aparır, yumor hissinə malikdir, yeri gələndə zarafat da edir, ciddi və tələbkardırlar, eyni zamanda tələbələri başa düşən və səmimidirlər. Obyektiv, prinsipial, ədalətli, mərhəmətli, müəllim peşəsinin şərəfini uca tutan, öz biliyi, bacarığı, davranış və rəftarı, tələbələrlə, müəllim həmkarları və başqa şəxslərlə qarşılıqlı münasibətlərdə qibtə hissi doğuran, tələbələrin qayğıları ilə maraqlanan və imkan daxilində öz məsləhətləri ilə onlara yol göstərənləri də vardır. Lakin bu müsbət keyfiyyətləri heç də bütün ali məktəb müəllimlərinə aid etmək olmur.

Ali məktəb müəllimləri aşağıdakı sorğuda iştirak etmişlər:1. Dərs dediyiniz tələbələrlə qarşılıqlı münasibələrinizdən razısınız? 2. Tələbələrlə qarşılıqlı münasibələrinizin daha yaxşı olmasından ötrü hansı tədbirləri görürsünüz? 3. Tələbələrinizdə daha çox nəyi üstün tutursunuz?

Müəllim-tələbə münasibətləri zamanı özünü göstərən çətinliklərə də aydınlıq gətirilmişdir. Tələbələr onları aşağıdakı şəkildə ifadə etmişlər: 1. Qarşlıqlı hörmət və anlaşmanın, səbir və hövsələnin, xoş və səmimi münasibətin olmaması. 2.Tələbələrə qeyri-obyektiv yanaşma. 3.Müəllimlərin tələbələrə hörmətsiz münasibəti, onlara qarşı saymazlıq.

Ali məktəbdəki mövcud vəziyyətlə bağlı müəyyənləşdirilən məsələlərin təhlili, eksperimentin ikinci – yoxlayıcı mərhələsinə keçməyə imkan

vermişdir. Eksperimental və kontrol qruplar müəyyənləşdirilmişdir. Ali məktəblərin bəzi qrupları eksperimental, bəzi qrupları isə kontrol qruplar kimi götürülmüşdür. Eksperimental qruplarda mühazirə və seminar məşğələləri xüsusi hazırlıq əsasında, tədris materialı ilə yanaşı tələbələrə əlavə mənbələrdən əldə olunmuş məlumatları çatdırmaqla və onların münasibətini öyrənmək, tələbələrin müstəqilliyinə, özfəaliyyətinə, idrak və yaradıcı fəallığına, təşəbbüskarlığına geniş yer ayırmaqla, informasiya kommunikasiya texnologiyalarından, innovasiyalardan, interaktiv təlim metodlarından faydalanmaqla təşkil olunmuşdur.

Məqsədyönlü, sistemli iş nəticəsində eksperimental qruplarda müəllim-tələbə münasibətlərinin səviyyəsi nəzərə çarpacaq dərəcədə yüksək olmuşdur. Aşağıdakı cədvəl dediklərimizi sübuta yetirir:

Cədvəl 2.1.

Müəllim-tələbə münasibətlərinin səviyyəsi

| Öyrənmək istədiyimiz məsələlər | Eks. (nəfərlə) | Kont. (nəfərlə) |
|---|---|---|
| 1.Müəllimlərinizin sizinlə qarşılıqlı münasibətlərində daha çox səciyyəvi olan cəhətlər hansılardır? | | |
| 1.2. ciddilik və rəsmilik | 49 | 53 |
| 1.3. səmimi və mehriban münasibət | 52 | 29 |
| 1.4. qayğı, tələbəni başa düşmək, onun sevincinə və kədərinə şərik olmaq | 56 | 31 |
| 1.5.müəllimlərin bəzilərinin tələbələrlə ünsiyyət bağlamağı, səmimi davranmağı özünə rəva görməməsi, onlarla maraqlanmaması | 12 | 43 |
| 1.6. müəllimin avtoritar üslubu | 15 | 38 |
| 1.7. müəllimin avtokratik üslubu | 14 | 35 |
| 1.8. müəllimin liberal üslubu | 17 | 39 |
| 1.9. müəllimin demokratik üslubu | 54 | 21 |

Cədvəldən göründüyü kimi, eksperimental qrupların müəllimləri ilə aparılmış söhbətlər nəticəsində bu qruplarda daha çox humanistləşdirmə və demokratiya bərqərar olmuş, istər mühazirə, istərsə də seminar müəllimlərinin gənclərə diqqət və qayğası artmışdır.

Biz müəllimlərin tələbə həyatı və onların taleyi ilə maraqlanma vəziyyətinə də aydınlıq gətirməyə çalışdıq. Nəticələr cədvəl 2.1-də öz əksini tapmışdır.

Cədvəl 2.2.

Müəllimlərin tələbə həyatı və onların taleyi ilə maraqlanma vəziyyətinin səciyyəsi

| Öyrənmək istədiyimiz məsələlər | Eks. (nəfərlə) | Kont. (nəfərlə) |
|---|---|---|
| 1.Tələbələrin məişət şəraiti, dolanışığı və ehtiyacları ilə | 38 | 24 |
| 1.2. onların öz asudə vaxtlarını necə keçirmələri ilə | 41 | 27 |
| 1.3. gənclərin öz ailələri – valideynləri, bacı-qardaşları ilə necə əlaqə saxlamaları ilə | 39 | 25 |
| 1.4. oğlan və qızların mühazirə və seminarlardan sonra vaxtını necə və harada keçirmələri ilə | 40 | 29 |
| 1.5. gənclərin öz tələbə yoldaşları ilə münasibətlərinin xarakteri | 47 | 28 |
| 1.6. tələbələrin müəllimlərlə qarşılıqlı münasibətlərinin xarakteri | 45 | 31 |
| 1.7. dekanlıq və ali məktəbdəki digər təşkilatlarla münasibətlərinin xarakteri | 43 | 33 |
| 1.8. tələbələrin akademik qrupun kuratoru ilə qarşılıqlı münasibətlərinin xarakteri | 39 | 26 |
| 1.9. tələbələrin başqa adamlarla, yaşayış yerindəki insanlarla qarşılıqlı münasibətlərinin xarakteri | 36 | 24 |

Cədvəldən gördüyümüz kimi, müəllimlərin tələbə həyatı və onların taleyi ilə maraqlanma vəziyyəti də eksperimental qruplarla müqayisədə götürüldükdə kontrol qruplaprda lazımi səviyyədə deyildir.

Cədvəl 2.3.

Tələbələrə konkret köməyin göstərilməsi

| Öyrənmək istədiyimiz məsələlər | Eks. (nəfərlə) | Kont. (nəfərlə) |
|---|---|---|
| 1.təlimdə və təlim müvəffəqiyyətinin artırılmasında | 42 | 27 |
| 2. auditoriyadankənar tədbirlərin təşkilində və həmin tədbirlərin tələbələrin hiss və duyğularında, davranış və rəftar tərzində müsbət izlər buraxmasında | 44 | 31 |
| 3. tələbələrin ailə-məişət problemlərinin həll olunmasında | 28 | 19 |
| 4. tələbələrin ailə həyatına uğurla hazırlanmalarında | 33 | 17 |
| 5. əks cinslə qarşılıqlı münasibətlərin düzgün qurulmasında məsləhətçi rolunu oynamaqla | 39 | 22 |
| 6. tələbələrin seçdikləri ixtisasa nəzəri cəhətdən yiyələnməsində | 47 | 32 |
| 7. tələbələrin seçdikləri ixtisasa praktik baxımdan yüksək səviyyədə yiyələnmələrində | 45 | 30 |

Cədvəllə tanışlıqdan məlum olur ki, istər təlimdə və təlim müvəffəqiyyətinin artırılmasında, istər auditoriyadankənar tədbirlərin təşkilində və həmin tədbirlərin tələbələrin hiss və duyğularında, davranış və rəftar tərzində müsbət izlər buraxmasında və tələbələrin ailə-məişət problemlərinin həll olunmasında, istərsə tələbələrin ailə həyatına uğurla hazırlanmalarında və əks cinslə qarşılıqlı münasibətlərin düzgün qurulmasında məsləhətçi rolunu oynamalarında, həmçinin tələbələrin seçdikləri ixtisasa nəzəri və praktik cəhətdən hazırlanmaları üzrə eksperimental və konstrol qrupların göstəricilərində fərqlər özünü göstərir.

Biz mühazirə və seminar məşğələlərində müəllim-tələbə münasibətlərinin hansı şəkildə qurulduğunu da aydınlaşdırdıq. Bu barədə cədvəl 2.4-dən ətraftı məlumat almaq mümkündür.

Cədvəl 2.4

Mühazirə və seminar məşğələlərində müəllim-tələbə münasibətlərinin düzgün qurulması səviyyəsi

| Öyrənmək istədiyimiz məsələlər | Səviyyələr (nəfərlə) | | | | | |
|---|---|---|---|---|---|---|
| | yüksək | | orta | | aşağı | |
| | Eks. | Kont. | Eks. | Kont. | Eks. | Kont |
| 1. Davranış və rəftarı pedaqoji etikanın tələblərinə hansı səviyyədə uyğundur? | 55 | 40 | 42 | 38 | 24 | 42 |
| 2. Nitqi və ünsiyyət tərzi hansı səviyyədə qənaətləndiricidir? | 57 | 39 | 44 | 41 | 10 | 30 |
| 3. Müəllimin geyiminin pedaqoji tələblərə uyğunluğu necədir? | 52 | 45 | 47 | 37 | 12 | 28 |
| 4. Nəzəri hazırlığının səviyyəsi necədir? | 46 | 33 | 39 | 36 | 26 | 41 |
| 5. Metodik hazırlığının səviyyəsi necədir? | 45 | 34 | 43 | 39 | 23 | 37 |
| 6. Pedaqoji ustalığının səviyyəsi necədir? | 44 | 33 | 44 | 42 | 13 | 35 |
| 7.İnformasiya kommunikasiya texnologiyalarından istifadə vəziyyəti necədir? | 41 | 32 | 42 | 44 | 28 | 34 |
| 8. Nəzəriyyə və praktikanı əlaqələndirmə bacarığı hansı vəziyyətdədir? | 40 | 35 | 47 | 37 | 24 | 38 |
| 9. Yeni təlim texnologiyalarından, interaktiv təlim metodlarından xəbərdarlıq səviyyəsi və onlardan faydalanmaq bacarığı necədir? | 39 | 33 | 43 | 39 | 29 | 48 |
| 10.Təlimin prinsiplərindən xəbərdarlıq səviyyəsi və onlardan faydalanmaq bacarığı necədir? | 48 | 39 | 44 | 42 | 19 | 29 |
| 11. Təlim prosesini idarəetmə səviyyəsi hansı vəziyyətdədir? | 42 | 34 | 43 | 36 | 26 | 40 |
| 12. Tələbələri idarəetmə səviyyəsi hansı vəziyyətdədir? | 47 | 38 | 46 | 45 | 18 | 27 |

Cədvəldən göründüyü kimi, mühazirə və seminar məşğələlərində müəllim-tələbə münasibətlərinin qurulması səviyyəsi də eksperimental və kontrol qruplarda fərqlidlir. cədvəl bu barədə aydın təsəvvür yaradır.

Biz həm də mühazirə və seminar məşğələlərində müəllimlərin tələbələrlə münasibətlərinin xarakterinə də aydınlıq gətirməyə səy göstərdik. Bu məqsədlə sorğular apardıq. Həmin sorğuların nəticələri cədvəl 2.5-də özünün aydın ifadəsini tapmışdır.

Cədvəl 2.5.

Mühazirə və seminar məşğələlərində müəllimlərin tələbələrlə münasibətlərinin xarakteri

| Öyrənmək istədiyimiz məsələlər | Eks. (nəfərlə) | Kont. (nəfərlə) |
|---|---|---|
| 1. Müəllim öyrənilən mövzuya aid dərslikdə yazılanlarla kifayətlənməyib müxtəlif mənbələrə müraciət etməlidir | 59 | 38 |
| 2.Müəllim tələbələrin yorulduqlarını, mövzunun, yaxud onun şərhinin darıxdırıcı olduğunu başa düşərək, bir anlığa fasilə elan etməlidir | 57 | 36 |
| 3.tədris materialının hansı səviyyədə mənimsənildiyini aydınlaşdırmalıdır | 61 | 34 |
| 4. tədris materialının öyrənilməsi və mənimsənilməsi ilə bilavasitə təlim prosesində məşğul olmalıdır | 58 | 35 |
| 5. mühazirəni canlı və maraqlı qurmalıdır | 62 | 40 |
| 6. seminar məşğələlərində tələbələrin fəallığına nail olmalıdır | 55 | 33 |
| 7. mühazirələr zamanı təkcə dərslikdəki materiala qapılıb qalmamalı, maraqlı və məzmunlu, həyatda lazım ola biləcək digər məlumatları diqqət mərkəzinə gətirməidir | 65 | 50 |

Cədvəl sorğunun nəticələri barədə lazımi təsəvvür yaratdığından göstəricilərin təhlili üzərində dayanmağı məqsədəuyğun hesab etmirik.

Beləliklə, ali məktəblərin akademik qruplarında müəllimlər və tələbələr arasında aparılmış məqsədyönlü, sistemli, fasiləsiz, planauyğun iş nəticəsində müəllim-tələbə münasibətləri düzgün quruldu və səmərəli nəticələr alındı.

Tədqiqat aşağıdakı **n ə t i c ə l ə r ə** gəlməyə əsas vermişdir.

1. Düzgün qurulmuş müəllim-tələbə münasibətləri pedaqoji prosesin səmərəliliyinin şərtidir. Müəllim-tələbə münasibətlərində müəllim şəxsiyyəti böyük rol oynayır. Məhz yüksək mənəviyyata, daxili zənginliyə malik olan, öz ixtisasını dərindən bilən, öz peşəsinin şərəf və ləyaqətini gözləyən, pedaqoji ustalığa və metodik hazırlığa yiyələnən müəllim tələbələrinin

gözlərində ucalır və belə olan təqdirdə müllim-tələbə münasibətləri düzgün qurulur.

2. Tələbələr özünə inamlı, təcrübəli və savadlı müəllimləri daha çox xoşlayırlar. Onların ən çox sevdikləri müəllimlər şəxsiyyət baxımından kamil, bitkin olanlardır. İxtisasına lazımınca yiyələnməmiş, fənninin tədrisi metodikasını mənimsəməmiş, öz üzərində müntəzəm çalışmayan müəllimlər öz zəifliklərini gizlətmək üçün tələbələrlə sərt rəftar edir, onların sual verəcəklərindən çəkinirlər. Təcrübəli müəllimlər isə təlimin optimallaşdırılması, yeni təlim texnologiyalarının, innovasiyaların tətbiqini diqqət mərkəzində saxlayırlar.

2. Tələbə şəxsiyyəti də bu münasibətlərin düzgün və əlverişli qurulmasında çox böyük əhəmiyyət kəsb edir. Bu münasibətlərin yaxşılaşdırılması üçün tələbələrin fərdi-psixoloji xüsusiyyətlərinə bələd olmaq lazımdır. İnsanı yaxından tanımadan onunla təkmil ünsiyyətə girmək, onun nüfuzunu və hörmətini qazanmaq, ona müsbət təsir göstərmək çətindir. Tələbə də öz müəllimini yaxşı tanımalıdır ki, lazım gəldikdə ona etibar edə bilsin, daxili aləmi, problemləri ilə onu tanış edə bilsin. Tələbə-müəllim münasibətlərində ünsiyyətin rolu böyükdür. Qarşılıqlı münasibətlər sistemi pedaqoji ünsiyyətin başlıca cəhətidir.

3. Müəllim-tələbə münasibətlərində nümunənin rolu böyükdr. Müəllim nümunə obyektinə çevrilmək üçün öz davranışına, rəftar tərzinə, nitq mədəniyyətinə, geyiminə diqqət yetirməli, auditoriyanı, tələbələri idarə etməyi bacarmalıdır. Tələbələr müəllimin nümunəsindən təmkinlilik, hövsələ və səbri əxz etməlidirlər. Təmkinlilik müəllimin görünüşündə, davranış və rəftarında, oturuşunda və duruşunda özünü büruzə verməlidir. Müəllim hər cəhətdən (elm, amal, söz, hərəkət, əxlaq, davranış və rəftar baxımından və s.) tələbəyə gözəl nümunə olmalıdır. Müəlliminin şəxsi nümunəsini görən tələbə də öz davranış və rəftarına, geyiminə, nitqinə, ünsiyyət tərzinə, dərslərinə fikir verir, hörmət və məhəbbət qazanmağa çalışır.

4. Müəllim öz sadəliyi və təvazökarlığı ilə təqlid obyektinə çevrilə bilər. təvazökarlıq elm, savad, qabiliyyət, vəzifə və maddi durum baxımından özündən aşağı olanların yanında özünü çəkməmək, üstünlüyünü onlara açq-aydın bildirməməkdir. müəllim-tələbə münasibətlərinin bünövrəsini qarşılıqlı hörmət və etibar təşkil edir. Bünövrə nə qədər möhkəm olarsa, qarşılıqlı münasibətlər də bir o qədər möhkəm və sağlam olar. Müəllim tələbəni sevmədikdə ona arzu olunan biliyi verə, bacarıq və vərdişləri aşılaya bilmir. Eynilə tələbə də müəllimi saymadıqda, onun hörmətini saxlamadıqda, dediklərinə etinasız yanaşdıqda zəruri bilik,

bacarıq və vərdişlərə yiyələnə bilmir.

5. Müəllim-tələbə münasibətləri həm təlim prosesində, həm və auditloriyadankənar tədbirlərdə, tələbələrin pedaqoji təcrübəsi dövründə, ictimai yerlərdə səmərəli qurulmalıdır. Müəllim və tələbə arasında subyekt-subyekt münasibətlərinin həyata keçirilməsinin ilkin şərti və eyni zamanda nəticəsi şəxsiyyətə və gəncin müstəqilliyinə təzyiq, təlimə məcbur etmə və davranışı rejimləşdirmək əsasında deyil, tələbənin yaradıcı özfəaliyyəti üçün əlverişli şərait yaratmağa istiqamətlənmiş (inkişafa yönəlmiş sistem) pedaqoji fəaliyyət ola bilər. Subyekt-subyekt münasibətləri bir-birini dəyərləndirməyə əsaslanır.

6. Ali məktəbdə müəllim-tələbə münasibətləri həm təlim prosesində, həm auditoriyadankənar vaxtlarda səmərəli qurulmalıdır. Tələbə ali təhsilini bitirəndən sonra da bu münasibətlərin saflığı qorunmalı, məzunlar həm orta, həm də ali məktəb müəllimləri ilə əlaqələrini saxlamalı, onlara baş çəkməli, hal-əhval tutmalı, bayramlarda onları təbrik etməlidirlər. Müəllimlər də yetirmələrinin sonrakı taleyinə biganə qalmamalı, onların fəaliyyəti, işləri ilə maraqlanmalı, uğurlarına, nailiyyətlərinə görə fərəhlənməlidirlər.

7. Qarşılıqlı hörmətə və qarşılıqlı anlaşmaya əsaslanan münasibət müəllim və tələbəni bir-birinə yaxınlaşdırır, onldarın ünsiyyətini asanlaşdırır, müəllimin nüfuzunu yüksəldir, tələbə bir şəxsiyyət kimi qiymətləndirildiyini görüb təlimə maraq göstərir, elmlərə əzmlə yiyələnir, istedad və qabiliyyətini büruzə verir. Pedaqoji prosesin düzgün qurulduğu institut və universitetlərdə tələbəyə pedaqoji prosesin bərabərhüquqlu üzvü kimi yanaşılır.

8. Münasibətin gözəlliyi etikanın mühüm tələblərindəndir. İnsanın yaxşı, nüfuzlu, sayılıb-seçilən, hörmət bəslənilən şəxs olması üçün onun öz-özünə, başqalarına münasibəti gözəl olmalıdır. Odur ki, hər bir şəxs mənəvi münasibətlərin təmizliyini, saflığını diqqət mərkəzində saxlamalıdır.

9. Pedaqoji qabiliyyətlər müəllimin fəaliyyəti zamanı mühazirə və seminar məşğələlərində yaranaraq formalaşır. Mühazirəçi zəruri pedaqoji bacarıq və vərdişlərə, qabiliyyətlərə yiyələnmədən müvafiq mütəxəssis hazırlığı sahəsində qarşıda duran vəzifələri yerinə yetirə bilmir.

10. Təlim prosesində müəllimin fəaliyyəti bəzi xüsusiyyətlərə malik olur. Həmin xüsusiyyətlərə bilmək lazımdır ki, mühazirə və seminar məşğələləri yüksək səviyyədə, maraqlı, məzmunlu və cəlb edici keçsin. Ali məktəbin gündəlik həyatında olduğu kimi, mühazirənin gedişində də müəllim və tələbə bir-birini başa düşməli, bir-birinə hörmət etməlidir. Auditoriyada müsbət mənəvi və psixoloji atmosferin yaranması mühazirə oxuyan professordan, dosentdən, digər tərəfdən hər bir tələbə oğlan və

qızdan çox asılıdır.

11. Seminar məşğələləri ali məktəbdə təlimin təşkilinin çox mühüm formalarından biri olub, mühazirələr zamanı tələbələrə verilmiş biliklərin, yaxud mühazirə prosesində nəzərdən keçirilməyən hər hansı mövzuların və tədris materialının necə mənimsənildiyini aşkara çıxarmaq məqsədilə təşkil olunur, tələbələrə praktik bacarıqlar aşılayır, onların peşə qabiliyyətləri inkişaf etdirir. Bu məşğələlərdə müəllimin demokratik ünsiyyət üslubu, pedaqoji əməkdaşlıq şəraitində fəaliyyəti münasibətlərin sağlam təməl üzərində qurulmasına imkan verir.

12. Müəllim pedaqoji prosesi, o cümlədən təlim prosesini idarə edir. Deməli, müəllim-tələbə münasibətlərinin necə olması onun səylərindən, tələbələrə yanaşma tərzindən, onun bu və ya digər tələbənin mənfi davranışına necə reaksiya verməsindən çox asılıdır. Seminar məşğələsinin keyfiyyəti tələbələrlə yanaşı müəllimin özünün bu məşğələyə necə hazırlaşmasından asılıdır.

13. İlkin pedaqoji kadr hazırlığında pedaqoji təcrübənin özünəməxsus rolu vardır. Pedaqoji təcrübə ali məktəbdə pedaqogika və psixologiya üzrə; habelə ixtisas fənlərinin və onların tədrisi metodikasının (ana dilinin tədrisi metodikası, riyaziyyatın tədrisi metodikası, ədəbiyyatın tədrisi metodikası, biologiyanın tədrisi metodikası və s.), ictimai-humanitar fənlərinin öyrənilməsi zamanı tələbələr tərəfindən qazanılmış biliklərin təcrübəyə tətbiqinə şərait yaradır.

İstər təlim prosesində və auditoriyadankənar tədbirlər zamanı, istərsə də ali məktəb təhsili və praktik bacarıq və vərdişlərin qazanılması üçün son dərəcə vacib olan pedaqoji təcrübə dövründə də müəllim-tələbə münasibətləri diqqət mərkəzində olmalıdır. Həmin münasibətlər özünəməxsusluğu ilə fərqlənir. Pedaqoji təcrübə dövründə tələbə bir tərəfdən öz ali məktəb müəllimləri – pedaqoji təcrübə rəhbəri, metodist müəllim, pedaqogika və psixologiya müəllimləri; digər tərəfdən təcrübə keçdikləri ümumtəhsil məktəblərin fənn müəllimləri və sinif müəllimləri, sinif və məktəb rəhbərləri ilə qarşılıqlı münasibətlərdə olurlar. Ali məktəb müəllimləri ilə onların qarşılıqlı münasibətləri həm müəllim-tələbə, həm də müəllim-müəllim (burada tələbələr əllərində curnal, müəllim kimi sinif otaqlarına daxil olur, müstəqil dərs keçirlər) münasibətləri çərçivəsində cərəyan edir.

Orta məktəb müəllimləri ilə onların münasibətləri əslində müəllim-müəllim münasibəti xarakterindədir. Lakin bəzi orta məktəb müəllimləri onlara bir tələbə kimi yanaşırlar ki, bu da düzgün deyildir, bir sıra hallarda münasibətləri mürəkkəbləşdirir və çətinləşdirir. Hətta bəzən bu

müəllimlərlə təcrübəçi tələbələr arasında ixtilaflar yaranır. Məktəblilərlə bu tələbələrin münasibətləri isə müəllim-şagird münasibətləri şəklində olur. Tədqiqatdan görünür ki, bütün bu qarşılıqlı münasibətlərin qurulması zamanı son dərəcə diqqətli olmaq lazımdır.

Tədqiqatın məzmunu, başlıca elmi ideyaları və nəticələri aşağıdakı çap işlərində öz əksini tapmışdır:

1. Müəllim-tələbə münasibətləri // Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun Elmi əsərləri, 2007 , № 2-3, s.196-198

2. Tələbələrin fərdi-psixoloji xüsusiyyətlərinə bələd olmaq tələbə-müəllim münasibətlərini yaxşılaşdıran mühüm şərt kimi // Azərbaycan Müəllimlər İnstitutnun Xəbərləri, 2008, № 2, s.48-56

3. Müəllim tipologiyası və müəllim-tələbə münasibətlərinə onun təsiri // Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun Elmi əsərləri, 2008, № 3, s.40-44

4. Pedaqoji təcrübə dövründə müəllim-tələbə münasibətlərinin düzgün qurulması şərtləri // Pedaqoji Ueniversitet Xəbərləri, 2008, Bakı, №6, s.267-271

5. Условия рациональной организации отношений преподавател – студент на лекциях Педагогические Науки» №1(34), 2009, Москава. Ст.27-30

6. Müəllim şəxsiyyəti və ona verilən tələblər // Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutunun Elmi əsərləri, 2010, № 4, s.82-87

7. Seminar məşğələlərində müəllim-tələbə münasibətləri / Azərbaycan Respublikası Təhsil Problemləri İnstitutu, Naxçıvan Müəllimlər İnstitutu. «Azərbaycan təhsili yeni inkişaf mərhələsində" mövzusunda respublika elmi-praktik konfransının materialları. Bakı, 2010, s. 85-89

8. Условия рациональной организации отношений преподавател – студент на лекциях // Вестник «Серия « Педагогические Науки » №2 (30), 2011 с. Алматы, 2011, ст.49-52

9.. İlkin pedaqoji kadr hazırlığında müəllim- tələbə münasibətlərinin səmərəli qurulması yolları / «Müəllim hazırlığında yeni yanaşmalar» mövzusunda Azərbaycan Respublikası Təhsil Problemləri İnstitunun 80 illiyinə həsr olunmuş konfransın materialları, Bakı, 2012, s. 225-274

**С.А. Керимова**

# Пути эффективной организации отношений учитель-студент в первичной подготовке педагогических кадров

## Резюме

Во введении обоснована актуальность темы исследования. Определены объект, предмет, цель, задачи, методы, основные положения, выносимые на защиту, научная новизна, теоретическая и практическая значимость работы.

В первой главе диссертации названием «Правильно организованные отношения учитель-студент как условие рациональности педагогического процесса» рассматриваются такие вопросы, как личность учителя и предъявляемые к ней требования, типология учителя и ее воздействие на отношения учитель-студент; роль примера в отношениях учитель и студент. Овладение знаниями по индивидуально-психологическим особенностям характеризуется как важное условие улучшения отношений «учитель-студент».

Вторая глава диссертации называется «Рациональная организация взаимоотношений учитель-студент в процессе обучения и во внеаудиторное время». Данная глава диссертации состоит из пяти параграфов. В отдельных параграфах к лекциям относится как к условию рациональной организации отношений учитель-студент, в центр внимания выносятся условия, определяющие эти отношения. В связи с этим освещаются отношения учитель-студент в внеаудиторных мероприятиях. При этом характеризуются такие вопросы, как проведение встреч, студенческие конференции, занятия в студенческих клубах, смотр кино и телевидения, что рассматривается в качестве рациональных работ в данной сфере.

В последнем параграфе второй главы характеризуются вопросы, связанные с определением рациональности отношений учителя и студентов.

**S.A. Kerimova**

## Way to efficient organization of the relations teacher-student in primary preparing the pedagogical personnel

**Summary**

In introduction is motivated urgency of the subject of the study. The certain object, subject, purpose of the problem, methods, the main positions, stood on protection, scientific novelty, theoretical and practical value of the work.

In the first chapter of the thesises by name "it is correct organized relations teacher-student as condition to rationality of the pedagogical process" are considered such questions, as personality of the teacher and presented to her requirements, typology of the teacher and its influence on relations teacher-student; the role of the example in relations teacher and student. The mastering by knowledges on individually-psychological particularity is characterized as important condition of the improvement of the relations "teacher-student".

The second chapter to thesises is identified "Rational organization of the relations teacher-student in process of the education and at in out-of-school hours". Given chapter to thesises consists of five paragraphs. In separate paragraph to lecture pertains as to condition of the rational organization of the relations teacher-student, in the focus of attention are stood condition, defining these relations. Relations teacher-student are illuminated in this connection in out-of-school hours. Are they herewith characterized such questions, as undertaking the meeting, student conferences, occupations in student club, review cinema and televisions that is considered as rational work in given to sphere.

In the last paragraph second chapters are characterized questions, connected with determination of rationality of the relations of the teacher and student.

МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ
РЕСПУБЛИКИ
АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ ПЕДАГОГИЧЕСКИЙ
УНИВЕРСИТЕТ

*На правах рукописи*

**СЕВИНДЖ АРИФ кызы КЕРИМОВА**

# ПУТИ ЭФФЕКТИВНОЙ ОРГАНИЗАЦИИ ОТНОШЕНИИ УЧИТЕЛЯ-СТУДЕНТОВ В ПЕРВИЧНОЙ ПОДГОТОВКЕ ПЕДАГОГИЧЕСКИХ КАДРОВ

5804.01 – Общая педагогика, история педагогики и образования

А В Т О Р Е Ф Е Р А Т

диссертации на соискание научной степени доктора
философии по педагогике

БАКУ - 2013